

**Rəfi Salmanoğlu**

## Qəlblərdə yaşayır Sabir Əliyev

*(Respublikanın tanınmış muğam ustası, məşhur xanəndə, mərhum Sabir Əliyevə həsr edirəm)*

Dünyaya gələndə səsiylə gəldi,
Səsiylə ad aldı, göyə yüksəldi.
Muğam zənguləsi göyləri dəldi,
Qəlblərdə yaşayır Sabir Əliyev.

Onun segahına əyləndi yollar,
Səsinə əl etdi Kəpəzlə, Qoşqar.
Bir də doğularmı belə sənətkar,
Qəlblərdə yaşayır Sabir Əliyev.

Hər yana yayıldı sözünün ətri,
Yaxşı ki, hər yanda bilindi qədri.
İndi ürəklərdə yaşayır xətri,
Qəlblərdə yaşayır Sabir Əliyev.

Rəfinin sevdiyi sənətkardı o,
Əbədi solmayan bir bahardı o.
Baxma o dünyaya bir gün vardı.
Qəlblərdə yaşayır Sabir Əliyev.

## Xalq şairi Nəriman Həsənzadəyə

Salıb millətimi şeirin sehrinə,
O yazıb-yaradıb neçə qərinə
Çoxdan sahib olub söz hünərinə,
Nəriman Həsənzadə, xalq şairimiz!

Böyük xəzinələr yaradan kəsdi,
Hər sözün üstündə yarpaqtək əsdi.
Əsəri məktəbdi, əsəri dərsdi,
Nəriman Həsənzadə, xalq şairimiz!

Çıxanda söz adlı ulu səhnəyə,
Səsi salonları salır lərzəyə.
Adıyla, sanıyla ucalıb göyə,
Nəriman Həsənzadə, xalq şairimiz!

O, bir uca dağdı, çox möhtəşəmdi,
Onun şeirləri həbdi, məlhəmdi.
Şair Rəfi üçün o, möhtərəmdi,
Nəriman Həsənzadə, xalq şairimiz!

## Azərbaycan vətəndaşıyam

İndi elə zamandı, başı uca gəzirəm,
Hər gün Vətən çörəyi, Vətən duzu kəsirəm.
Gələcəyin eşqilə sabaha tələsirəm,
Axı mən Azərbaycan vətəndaşıyam!

Müstəqil dövlətim var, şəkli zirvələrdədi,
Üçrəngli bayrağımın haqqı uca yerdədi.
Millətimin şöhrəti yazdığım əsərdədi,
Axı mən Azərbaycan vətəndaşıyam!

Bütöv Azərbaycana gedən yolum Turandı,
Bir andım «Ana yasa», bir andım da «Quran»dı.
Mən hər yerdə qalibəm, millətim qəhrəmandı,
Axı mən Azərbaycan vətəndaşıyam!

Var olsun İlham kimi Ali Baş Komandanım,
Onun dayağı olsun qoy uca Yaradanım.
Rəfinin şöhrətisən, sən ey Azərbaycanım,
Axı mən Azərbaycan vətəndaşıyam!

Türküstan.- 2026.- 27 yanvar-2 fevral, №4.- S.15.